# Dostoyevskaya Anna Qriqoryevnanın xatirələri

*əvvəli ötən saylarımızda*



**VII**

Oktyabrın iyirmi doqquzu biz sonuncu hissəni yazdıq. "Qumarbaz" romanı artıq bitmişdi. Oktyabrın 4-dən 29-na kimi - 26 gün ərzində Fyodor Mixayloviç iki sütunla yeddi vərəqdən ibarət böyük formatda, adi qaydayla götürəndə on vərəq həcmdə roman yazdı. Fyodor Mixayloviç buna görə həddindən artıq sevinirdi və dedi ki, Stellovskiyə əlyazmanı sağlıq-salamatlıqla təhvil verəndən sonra dostlarına (Maykov, Milükov və b.) restoranda qonaqlıq verəcək və məni də orada görmək istəyir.

- Siz nə vaxtsa restoranda olmusunuz? - məndən soruşdu.

- Xeyir, heç vaxt.

- Mənim verdiyim qonaqlığa gələcəksiz də, elə deyilmi? Gözəl əməkdaşımın sağlığına içmək istəyirəm. Sizin köməyiniz olmadan bu romanı bitirə bilməzdim. Gələcəksiz?

Anamdan icazə alacağımı desəm də, özlüyümdə ora getməyəcəyimə qərar verdim. Mən bu utancaqlığımla darıxdırıcı sifət alacaq və bununla da ümumi şadyanalığa qanqaraçılıq gətirərdim.

Səhəri gün - oktyabrın 30-da mən Fyodor Mixayloviçə dünənki qeydlərin əlyazmasını gətirdim. Sanki bu dəfə məni həmişəkindən fərqli - daha sevincli qarşıladı və mən içəri daxil olanda üzünə rəng də gəldi. Adətimiz üzrə biz yazılmış vərəqləri saydıq və onların sayı gözlədiyimizdən də çox çıxdı. Fyodor Mixayloviç bu gün romanı oxuyacağını, müəyyən düzəlişlər edərək sabah onu Stellovskiyə aparacağını bildirdi. Dərhal da əvvəlcədən danışdığımız əlli rublu mənə verdi, əlimi möhkəm sıxdı və əməkdaşlıq etdiyimə görə təşəkkürünü bildirdi.

Oktyabrın 30-da Fyodor Mixayloviçin həm də ad günü olduğunu bilirdim, buna görə də hər gün geyindiyim darıxdırıcı qara paltarımı yox, bənövşəyi rəngli ipək paltarımı geyinmişdim. Məni həmişə sanki yas libasında görən Fyodor Mixayloviç ona göstərdiyim diqqətə görə təşəkkür etdi, bənövşəyi rəngin mənə çox yaraşdığını, uzum paltarda hündür və qamətli göründüyümü dedi. Onun tərifləri eşitmək mənim üçün çox xoş idi. Lakin bu sevincimi Fyodor Mixayloviçin dul qardaşı arvadı - Emiliya Fyodorovnanın gəlişi pozdu. O, ad günü münasibətilə təbrikə gəlmişdi. Fyodor Mixayloviç bizi tanış etdi və gəlinlərinə romanı mənim köməyimlə vaxtında bitirə bildiyini və beləliklə bəladan qurtulduğunu dedi. Bütün bu sözlərə rəğmən Emiliya Fyodorovna mənə qarşı quru və təkəbbürlü oldu. Bu məni həm təəccübləndirdi, həm də küsdürdü. Gəlinlərinin soyuq səs tonu Fyodor Mixayloviçin də xoşuna gəlmədi və özü mənə qarşı daha mehriban daha yaxşı oldu. Təzəcə çapdan çıxmış bir kitabı mənə vərəqləməyə verdi, özü də Emiliya Fyodorvnanı bir tərəfə çəkərək hansısa kağızları göstərməyə başladı.

Appolon Nikolayeviç Maykov gəldi. Mənimlə salamlaşsa da, deyəsən, tanımadı. Fyodor Mixayloviçdən romanı haqqında soruşdu. Fyodor Mixayloviçin başı gəlinləriylə söhbətə bərk qarışdığından ona ünvanlanan sualı eşitmədi və heç nə demədi. Bu vaxt Fyodor Mixayloviçin yerinə mən cavab vermək qərarına gəldim. Bildirdim ki, roman dünən bitib və bu gün son fəsli yazıb ona gətirmişəm. Maykov tez yaxınlaşdı, əlini mənə uzadıb bayaq tanımadığına görə üzr istədi. Bunu yaxını yaxşı görmədiyilə izah etdi və həmçinin qara paltarda mən ona bəstəboy kimi görünürmüşəm.

O, roman haqqında suallar verməyə başladı və mənim də fikrimi öyrənmək istədi. Mənə əziz və doğma olan bu roman haqqında heyranlıqla danışdım və dedim ki, əsərdə bir neçə canlı və alınmış tip (nənə, mister Astley və aşiq general) var. Biz təxminən iyirmi dəqiqə söhbətləşdik və mehriban, xoş adamla söhbət etmək mənə rahat gəlirdi. Emiliya Fyodorovna Maykovun mənə qarşı münasibətini görüb təəccüblənmiş, hətta bir qədər də pərtləhər olmuşdu. Amma yenə də səsinin tonunu dəyişmədi. Çox güman ki, hansısa bir stenoqrafçıyla mehriban danışmağı öz ləyaqətindən aşağı bilirdi.

Bir az sonra Maykov getdi. Mən də getmək istədim. Emiliya Fyodorvnanın mənə qarşı təkəbbürünə qatlanmaq fikrim yox idi. Fyodor Mixayloviç min dil töküb məni saxlamaq istədi və gəlinlərinin kobudluğunu müəyyən qədər yumşaltmağa çalışdı. Sonra məni qapıya qədər ötürdü və onu evimizə dəvət etmək barədə verdiyim sözü xatırlatdı. Mən dəvətimin üstündə dayandığımı dedim.

- Mən nə vaxt gələ bilərəm? Sabah gəlsəm olar?

- Xeyir, sabah mən evdə olmayacam. Gimnaziyadan rəfiqəm məni qonaq çağırıb.

- Birisigün?

- Birisigün isə stenoqrafiyadan mühazirəm var.



- Onda noyabrın ikisi?

- Çərşənbə günü, ayın ikisində mən teatra gedəcəm.

- İlahi! Siz bütün günlərdə nəyləsə məşğulsuz. Bilirsinizmi, Anna Qriqoryevna, mənə elə gəlir ki, siz bunu qəsdən edirsiniz. Sadəcə sizə gəlməyimi istəmirsiz. Düzünü deyin!

- Yox, əlbəttə ki! Sizi evimizdə görməyimizə şad olarıq. Noyabrın üçü, cümə axşamı, axşam saat yeddi üçün gəlin.

- Dördüncü gün? Çox gecdir! Sizsiz mən çox darıxacam!

Mən, əlbəttə ki, bu sözləri xoş bir zarafat kimi qəbul etdim.

**VIII**

Beləliklə, xoş günlərim bitdi və darıxdırıcı günlərə qədəm qoydum. Bu bir ay ərzində Fyodor Mixayloviçlə görüşə tələsməyə, onunla söhbət etməyə elə öyrəşmişdim ki, bunlar artıq mənim üçün sanki bir tələbata dönmüşdü. Bütün əvvəlki məşğuliyyətlərim marağını itirmiş və daha boş və mənasız gəlirdilər mənə. Fyodor Mixayloviç bizə gələcəyi fikri də məni sevindirmir, əksinə qanımı qaraldırdı. Mehriban, xeyirxah anamın və mənim bu cür istedadlı insan üçün maraqlı həmsöhbət olacağına inanmırdım. İndiyə kimi Fyodor Mixayloviçlə söhbətimiz tuturdusa, bunun səbəbi (mənim fikrimcə) ikimizin marağında olan bir işin ətrafında fırlanması idi. İndi isə Fyodor Mixayloviç bizə qonaq qismində gələcəkdi və biz onu nəylə əsə maraqlandırmalıydıq. Müxtəlif söhbət mövzuları axtardım. Fyodor Mixayloviç kimi həsas bir insanın bizə gələnə qədər uzun və darıxdırıcı yol qət etməsi, bizdə darıxdırıcı bir gün keçirməsi əvvəlki görüşlərimizin xatirəsini siləcək, bu cür mənasız bir tanışlığa can atdığına görə peşman olacağını düşündüm. Onu nə qədər çox görmək istəsəm belə, bizə gələcəyini unutmasını arzulayırdım.

Həyatsevər bir adam kimi başımı qatmağa çalışırdım. Kədərli, daha doğrusu, həyəcanlı, narahat əhvalımı düzəltməyə çalışırdım. Rəfiqəmgilə qonaq getdim, o biri gün stenoqrafiya mühazirəsində oldum. Olxin məni sevinclə qarşılayaraq işi müvəffəqiyyətlə başa vurduğuma görə təbrik etdi. Fyodor Mixayloviç romanı vaxtında sona yetirməsinə vəsilə olan stenoqrafçı məsləhətinə görə ona yazıb təşəkkür edibmiş. Bu yeni yazı qaydasının ona münasib olduğunu və bundan sonra da ondan istifadə edəcəyini bildirib.

Cümə axşamı günü, noyabrın 3-də səhər-tezdən Fyodor Mixayloviçin gəlişinə hazırlığa başladım. Çıxıb o səvən armud növündən, müxtəlif şirniyyatlardan aldım. Bütün günü özümü narahat hiss edirdim, saat yeddiyə isə həyəcanım pik nöqtədə idi. Saat səkkizin yarısı oldu, səkkiz oldu gəlib çıxmadı. Mən onu bizə gəlmək fikrindən daşındığını və ya ümumiyyətlə, unutduğunu düşündüm. Saat doqquzun yarısında bayaqdan gözlənilən qapı zənginin səsi eşidildi. Mən Fyodor Mixayloviçi qarşılamağa tələsdim və soruşdum:

- Məni necə tapa bildiz, Fyodor Mixayloviç?

- Lap rahat, - sevincək cavab verdi, - siz bunu elə tonda deyirsiniz ki, sanki sizi gəlib tapmağımdan məmnun deyilsiniz. Mənsə sizi saat yeddidən bəri axtarıram. Bütün ətafı gəzmişəm, hamıdan soruşmuşam. Burda hamı Kostromskaya küçəsinin olduğunu bilir, amma harda yerləşdiyini yox. (Kostromskaya küçəsi Nikolayevsk hospitalının arxasından keçirdi) Yaxşı ki, bir xeyirxah adam tapıldı, arabamıza mindi və arabaçıya yolu gösdərdi.

Anam otağa daxil oldu və onu Fyodor Mixayloviçə təqdim etdim. O, nəzakətlə anamın əlindən öpdü və işində yardımçı olduğuma görə mənə borclu olduğunu bildirdi. Anam çay süzməyə başladı, Fyodor Mixayloviçsə bu arada Stellovskiyə əlyazmanı çatdırmaqdan ötrü qarşılaşdığı çətnliklərdən danışdı. Əvvəldən düşündüyümüz kimi, Stellovski hiyləgərlik işlədib: o evən çıxıb gedib, qulluqçu isə onun nə vaxt geri dönəcəyindən xəbərsiz olduğunu bildirib. Bu halda Fyodor Mixayloviç Stellovksinin nəşriyyatına gedib, əlyazmanı kontorun müdürünə təhvil vermək istəyib. O isə bu cür məsuliyyət daşımadığını bildirərək əlyazmanı götürməkdən qətiyyətlə boyun qaçırıb. Notariusa getməyə Fyodor Mixayloviç gecikib. Ərazi idarəsində müdiriyyətdən heç kim olmayıb, ona axşamüstü baş çəkməyi deyiblər. O bütün gününü həyəcan içində keçirib və ancaq axşam saat onda əlyazmanı orda təhvil verərək, nəzarəçidən onu vaxtında alması haqqında kağız ala bilib.

Biz əvvəllər olduğu kimi şən və mehribancasına çay süfrəsində söhbətləşdik. O qədər maraqlı söhbətlər ortaya çıxdı ki, mənim söhbət etmək üçün tapdığım mövzuları kənara qoymalı olduq. Anamı Fyodor Mixayloviç əvvəlcə bu cür tanınmış bir yazıçının bizə qonaq gəlməsiylə heyran etdi. Fyodor Mixayloviç cazibədar olmağı, özünə diqqət cəlb etməyi bacarırdı. Mən ona qarşı əks fikirdə olan adamların tanışlıqdan sonra heyran olduqlarının tez-tez şahidi olurdum.

Fyodor Mixayloviç söhbət arasında bir həftə dincəlmək və sonra "Cinayət və cəza"nın sonuncu hissəsini yazmağa başlamaq istədiyini bildirdi.

- Mənim sizin köməyinizə ehtiyacım var, Anna Qriqoryevna. Sizinlə işləmək mənim üçün çox asan və rahat idi. Mən bundan sonra da o cür üsulla işləmək istərdim və düşünürəm ki, mənimlə əməkdaşlıqdan imtina etməzsiniz.

- Böyük həvəslə sizə kömək edərəm, - dedim, - lakin Olxinin bu işə nə deyəcəyini bilmirəm. Bəlkə də, sizin bu yeni işinizi o başqa tələbəsi üçün nəzərdə tutub.

- Mən sizin iş maneranıza öyrəşmişəm və olduqca razıyam. Olxinin mənə başqa bir tələbə təklif etməsi çox qəribə olardı. Bəlkə də, mən heç o adamla uyğunlaşa da bilmədim. Bəlkə, siz özünüz mənimlə daha işləmək istəmirsiniz? Belə olduğu təqdirdə mən heç nə deyə bilmərəm...

O, görünür ki, buna görə kədərlənmişdi. Mən onu sakitləşdirməyə çalışırdım. Dedim ki, Olxin, çox güman ki, narazı olmaz, amma hər ehtimala qarşı mən bu barədə onunla danışmalıyam.

Saat on bir radələrində Fyodor Mixayloviç getməyə hazırlaşdı. Qapıdan çıxanda ilk mühazirədəcə Olxinlə danışmağı və nəticəni ona yazmağımı xahiş etdi. Biz xoş təəssüratla sağollaşdıq və qonaq otağına bu cür gözəl söhbətin sevinci içində daxil oldum. Amma heç on dəqiqə keçməmişdi ki, qulluqçu gəldi və Fyodor Mixaloviçi gətirən arabaçının qaranlıqda kirşədən döşəkcəsinin oğurlandığını dedi. Arabaçı çox çarəsiz bir vəziyyətə düşüb, kədərlənib, ancaq Fyodor Mixayloviçin itkini qarşılayacağını bildirdikdən sonra nisbətən sakitəşibmiş.

O zaman çox gənc idim, bu epizod məni çox əsəbiləşdirmişdi. Düşünürdüm ki, bu hadisə Fyodor Mixayloviçin bizə münasibətini dəyişəcək, oğurluğun baş verdiyi yerlərə bir daha gəlməyəcək. Bu cür gözəl keçən günün təəssüratını belə bir pis hadisənin dağıtmasına elə acıyırdım ki, az qala ağlayacaqdım.

*ardı var*

**Rus dilindən tərcümə edən: Xanım Aydın**